# İstanbulda TDT sənaye, elm, texnologiya və innovasiyalar nazirlərinin toplantısı olub

**İstanbulda Türk Dövlətləri Təşkilatı (TDT) ölkələrinin sənaye, elm, texnologiya və innovasiya nazirlərinin birinci toplantısı keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Macarıstan, Şimali Kipr Türk Cümhuriyyəti təmsil olunub.

Azərbaycanı tədbirdə iqtisadiyyat naziri Mikayıl Cabbarovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Toplantıda işçi qrupun gələcək fəaliyyətinə dair atılacaq addımlar, türkdilli ölkələrin sahə üzrə əməkdaşlığının artırılması kimi məsələlər müzakirə olunub. Türkiyənin sənaye və texnologiya naziri Mehmet Fatih Kacır çıxışı zamanı vurğulayıb ki, ilk dəfə keçirilən bu toplantı TDT əməkdaşlığının təməlidir.

"Böyük sınaqlardan keçdiyimiz bu dövrdə ən böyük dayağımız ortaq tariximiz, dilimiz, mədəniyyətimizdir. Türkiyə olaraq türk dünyası arasında əməkdaşlığın genişlənməsindən məmnunluq duyuruq. Ortaq fəaliyyətimiz, həm də yaranan bütün çətinliklərdən birgə çıxmağımıza dəstək verəcək ən böyük amildir. Əsas hədəfimiz hər gün dəyişən və yenilənən dünyada ölkələrimizi birlikdə daha da gücləndirmək və inkişaf etdirməkdir. Bu gün təməli atılan bu birlikdən, sadəcə, dövlət strukturlarımız deyil, özəl sektorda da faydalanacaq", - deyə türkiyəli nazir qeyd edib.

Tədbirdə çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov Türk Dövlətləri Təşkilatı ölkələrinin sənaye, elm, texnologiya və innovasiya nazirlərinin növbəti toplantısının Azərbaycanda keçirilməsi ilə bağlı təklif irəli sürüb. Təklif iştirakçı ölkələr tərəfindən qəbul olunub.

---

Azərbaycan. - 2024.- 27 oktyabr (№ 237).- S.2.